**UOT 004.8** **(səh.5- 11)**

# SUNİ İNTELLEKT VƏ YENİ TƏFƏKKÜR TƏRZI

**İlham R. Məmmədzadə**
f.e.d., prof., AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun
direktoru,
e-mail: ilham_mamedzade@mail.ru

**Samirə N. Dadaşova**
f.ü.f.d., AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun
böyük elmi işçisi,
e-mail: dadashovas.phil@gmail.com

**Xülasə:** Məqalə süni intellektin (Sİ) məfhumuna və onun elmə təsirinə həsr olunmuşdur. Eyni zamanda, məqalə Azərbaycan elminin bəzi müasir problemlərinin araşdırılması və onun Sİ-in köməyi ilə müasirləşməsi imkanların təhlilindən bəhs edir. Müəlliflər Sİ-in fəlsəfi təhlilini həyata keçirərkən, onun alimin şüuruna təsirini və bunun nəticəsi kimi onda müəyyən ölkənin, elminin ənənələri, fəlsəfəsi və tarixi hüdudlarında yeni təfəkkür üslubun formalaşdırılmasını göstərirlər. Müəlliflərin fikirincə, mövcüd olan akademik ünsiyyət və tədqiqat modelləri artıq köhnəlib və elmin müasir tələblərinə cavab vermir. Sİ fərdin şüurunun hüdudlarını genişləndirən fənlərin qovuşduğu sahədə mövzuları aşkar edir və bununla da dissiplinar elmlərin inkişafını sürətləndirir. Bununla bağlı, elmi ictimaiyyətə fənlərarası və interakademik əlaqələrin "üfüqi dialoq" əsasında qurulmasını tədbiq etməyi təklif edilir.
Müəlliflər belə nəticəyə gəlirlər ki, cəmiyyətin inkişafını şərtləndirən dünyanı təhdid edən riskləri öz ölkəsi, mədəniyyəti və cəmiyyəti kontekstində müəyyənləşdirən yüksək inkişaf etmiş elmdir və digər ölkələrin təcrübəsinin mənimsənilməsi yalnız o zaman uğura gətirib çıxara bilər ki, ölkəmizdə elm lazımi səviyyədə inkişaf etmiş olsun.
**Açar sözlər:** süni intellekt, Azərbaycan elmi, yeni şüur, təfəkkür tərzi, üfüqi dialoq

# ARTIFICAL INTELLIGENCE AND A NEW WAY OF THINKING

**Ilham R. Mammadzada**
DSc in Philosophy, prof.,
Director of the Institute of Philosophy and Sociology of ANAS.
e-mail: ilham_mamedzade@mail.ru

**Samira N. Dadashova**
PhD, Senior Researcher,
Institute of Philosophy and Sociology of ANAS.
e-mail: dadashovas.phil@gmail.com

**Abstract:** The article is devoted to the concept of artificial intelligence (AI) and its impact on science. At the same time, the article refers to the study of some modern problems of Azerbaijani science and the analysis of the possibilities of its modernization with the help of AI. Carrying out a philosophical analysis of AI, the authors show its influence on the consciousness of a scientist and, as a result, the formation of a new way of thinking within the traditions, philosophy and history of a par-

ticular country. According to the authors, the existing models of academic communication and research are already outdated and do not meet the modern requirements of science. AI opens up topics at the intersection of disciplines that expand the boundaries of individual consciousness, thereby accelerating the development of disciplinary sciences. In this regard, the scientific community is invited to establish interdisciplinary and interacademic relations on the basis of a "horizontal dialogue".

## ИСКУССТВЕННЫЙ ИНТЕЛЛЕКТ И НОВЫЙ СТИЛЬ МЫШЛЕНИЯ

**Ильхам Р. Мамедзаде**
д.ф.н, проф., директор
Института философии и социологии НАНА
e-mail: ilham_mamedzade@mail.ru

**Самира Н. Дадашова**
PhD, стар. науч. сотрудник
Института философии и социологии НАНА
e-mail: dadashovas.phil@gmail.com

**Аннотация:** Статья посвящена понятию искусственного интеллекта (ИИ) и его влиянию на науку. В работе также рассматриваются некоторые современные проблемы азербайджанской науки и возможности ее модернизации с помощью ИИ. Проводя философский анализ ИИ, авторы показывают его влияние на сознание ученого и, как следствие, формирование нового образа мышления в рамках традиций, философии и истории определенной страны. По мнению авторов, существующие модели академической коммуникации и исследования устарели и не отвечают современным требованиям науки. При этом ИИ раскрывает темы на стыке дисциплин, расширяющие границы индивидуального сознания, тем самым ускоряя развитие дисциплинарных наук. В связи с этим научному сообществу предлагается установить междисциплинарные и межакадемические связи на основе «горизонтального диалога».

Авторы приходят к выводу, что развитие общества характеризуется высокоразвитой наукой, определяющей риски, угрожающие миру, через призму своей страны, культуры и общества, а заимствование опыта других стран хоть и может привести к успеху, но только в том случае, если наука в собственной стране развита на должном уровне.

**Ключевые слова**: искусственный интеллект, азербайджанская наука, новое сознание, стиль мышления, горизонтальный диалог

## Giriş

Yeni texnologiyaların tətbiqi və istifadəsi cəmiyyətdə ciddi dəyişikliklər aparılması istiqamətində ilk addım olsa da, mahiyyətcə, ikinci dərəcəli xarakter daşıyır: ölkədə müvafiq mühit və elm və təhsilə lazımı münasibət, o cümlədən, zəka və intellektin mahiyyətini anlamaqda elmin imkanlarının fəlsəfi dərki olmadan mütərəqqi dəyişiklik mümkün deyil. Bu problem təkcə süni intellektdən (Sİ) necə istifadə olunduğu, zəkanın dərkində və şüur proseslərini anlamaqda onun fəlsəfəyə necə kömək etdiyi ilə deyil, həm də Sİ-in özünün necə dəyişməsi ilə bağlıdır. Zənnimizcə, zamanın çağırışlarına cavabları keçmişdə deyil, müasir dövrün əsas təmayüllərinin dərkində axtarmaq lazımdır. "Keçmişdən, eləcə də bu məsələdə başqalarının təcrübəsindən yalnız o zaman istifadə etmək olar ki,

ölkənin inkişafının müəyyən mərhələsində onun ictimai şüurunun özgünlüyü və əsas xüsusiyyətlərini dərk etmiş oluruq" [3, s. 72].

Elmi cəmiyyətimiz müasirliyin, bilik və informasiya mədəniyyətinin dəyişkənliyi və ziddiyyətliliyinin xüsusiyyətlərini qəbul etməyə heç də tam hazır deyil. Onun dövlətin və bütövlükdə cəmiyyətin dəstəyinə ehtiyacı var: yalnız birgə səylərlə elm institutunu modernləşdirərək, informasiya cəmiyyətinin risk və təhdidlərini aradan qaldıraraq ona təhlükəsiz keçidi həyata keçirə bilərlər.

## Süni intellekt anlayışı və onun elmdə tətbiqi

Sİ məfhumunun geniş yayılmasına və istifadə olunmasına rəğmən, o, müxtəlif mənbələrdə fərqli şərh olunur: bəzi mütəxəssislər onu elm kimi, digərləri isə sistem kimi nəzərdən keçirirlər. Bu istilahı ilk dəfə Sİ tədqiqatları sahəsinə verdiyi töhfəyə görə Tyürinq mükafatı almış Con Makkarti təklif edib və o, bunu intellektual maşınlar və kompüter proqramları yaratma elmi və texnologiyası kimi xarakterizə edib [7, s. 87]. Sİ sahəsində aparıcı tədqiqatçı, professor Corc Lüger ona kompüter elminin düşüncəli davranışın avtomatikləşdirilməsi ilə məşğul olan sahəsi kimi tərif verir [5, s. 1]. Eyni zamanda, Stenford Fəlsəfə Ensiklopediyası bu termini süni heyvan və insanların yaradılmasına həsr olunmuş sahə ilə əlaqələndirir [8, veb]. Avropa Komissiyasının verdiyi rəsmi tərifə əsasən: "Süni intellekt (Sİ) ətraf mühitin təhlilindən və qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün – müəyyən dərəcədə müstəqil surətdə – fəaliyyətin görülməsindən ibarət düşüncəli davranış nümayiş etdirən sistemlərə aiddir" [4, veb]. Aydındır ki, əgər Lüger və onun tərəfdarları Sİ-i düşüncəli davranış modeli ilə əlaqələndirirlərsə Makkarti hesablama modelini prioritet hesab edir. Məhz sonuncu tərif işimizdə qaldırılmış problemlərə başqalarından daha çox uyğun gəlir. Biz Sİ-i məlumatları daha böyük sürətlə toplamaq, işləmək, emal və təhlil etmək imkanı verəcək bir vasitə kimi nəzərdən keçirirk, bu isə tədqiqat prosesinin daha tez və səmərəli nəticə verəcəyi deməkdir. Anlamaq lazımdır ki, Sİ təkcə qoyulan suallara "düzgün" cavab verməyə qabil robot deyil, həm də kompüterdə verdiyimiz ən sadə alqoritmlərə reaksiya, həmçinin mühakimələri modelləşdirmək və/və ya obrazlı informasiyanı emal etmək və s. deməkdir.

Eyni zamanda, anlamaq lazımdır ki, Sİ-in elmdə istifadəsi və onun bir elm kimi tədqiq edilməsi identik vəzifələr deyil. Sİ təbii zəkanın davamı olmaqla, ona reduksiya edilə bilməz. O, təbii intellektin dərkinə reaksiya kimi yaranıb, lakin bu gün həm də elmin metodları yeniləmək üçün müxtəlif fənlərdən biliklərin toplanması, informasiyanın neyron şəbəkədə işlənməsi və, nəhayət, nəticələrin əldə edilməsi və onların elmdə tətbiqi kimi mahiyyətinin dərkini nəzərdə tutur. Sİ tamamlanmış gerçəklik adlanan fenomenin dərindən öyrənilməsinə, alimlərin nəticələrini yoxlamaq üçün kompüter simulyasiyalarından istifadəyə və fəlsəfənin özünün aktuallaşmasına təkan verdi. Onun tətbiqi müəyyən edilmiş və şərti müəyyənlik arasındakı əlaqə üzərində fəlsəfi refleksiyanı nəzərdə tutur. Yəni Sİ problemlərinin araşdırılması nəinki kompüter proqramlarının və ya Sİ daşıyıcılarının yaradılması və təkmilləşdirilməsinə gətirib çıxarır, bu həm də elmdə Sİ-in köməyi ilə həll edilə bilən müasir problemlərin müəyyənləşdirilməsini və başlıcası, insanın özünün koqnitriv proseslərinin fundamental iş prinsiplərinin aydınlaşdırılmasını nəzərdə tutur. Sİ alimə öz şüuruna kənardan baxmağa, onun imkanlarını nəzərə almağa, onun yeni keyfiyyət və qabiliyyətlərini müəyyən etməyə imkan verir. Buna görə də, Sİ-in təhlili və onun fəaliyyətdə tətbiqi təkcə kompüter elmini deyil, həm də neyroelmi və şüur fəlsəfəsini zənginləşdirir. Məsələn,Sİ elmin yalnız ayrı-ayrı fənlərinin deyil, onun bütövlükdə inkişafını təhlil etməyə imkan verir. O, fərdin şüurunun hüdudlarını genişləndirən fənlərin qovuşduğu sahədə mövzuları aşkar edir və bununla da dissiplinar elmlərinin inkişafını sürətləndirir. Bundan əlavə, Sİ cəmiyyətin və ictimai şüurun inkişafının uğurlu proqnozlaşdırılmasına kömək edir və, eyni zamanda, "insanlardan gizlədilən nümunələri təhlil etmək, yeni dildən tutmuş müxtəlif elm sahələrini birləşdirən yeni elmə qədər əlavə təsviri imkanlar təklif etmək qabiliyyətinə görə elmi tədqiqatlarda əhəmiyyətli potensiala malikdir" [1, s.105].

Beyin və şüurun, şüur və Sİ-in qarşılıqlı təsirinin tədqiqi, ümumiyyətlə, bütövlükdə, obrazların, metaforaların, fəlsəfənin köməyi ilə Sİ-in təzahürünün (və ya tətbiqinin) ən azı üç mərhələsini aşkar etməyə imkan verir: problemlərin həllində köməkçi vasitə kimi, tam hüquqlu ortaq kimi və nəhayət, müstəqil komponent kimi. Tətbiq üsulundan asılı olmayaraq Sİ epistemologiyaya da təsir göstərir, çünki, o faktları kompüterin yaddaşında necə təmsil oluna biləcəyini öyrənir. Sİ sahəsindəki tədqiqatların təsiri altında keçmiş, indi və gələcək arasında potensial dialoq olan yaddaş yenidən mənalandırılır. Şübhəsiz, texnologiyalar mədəniyyət və insanları transformasiyaya məruz qoyur və onlarla bərabər isə, onları təhlil etmə vasitə və metodları da dəyişir. Hazırda, epistemologiyanın bir çox problemlərinin tədricən Sİ sahəsinə keçdiyi zaman onun rolu məhz müxtəlif (mötəbər və şübhəli) mənbələrdən insana yönəlmiş böyük həcmdə biliyi dərk etməkdən ibarətdir. Öz növbəsində, epistemologiyanın hərtərəfli öyrənilməsi təkcə Sİ-in inkişafı üçün deyil, həm də biliklərimizi əsaslandırmağa və qəbul etdiyimiz informasiyanı dəyərləndirməyə kömək etdiyi üçün əhəmiyyət daşıyır.

İlk növbədə, anlamaq lazımdır ki, müasirliyin çağırışları alimlərin qarşısında duran tələblərdir, zira onlar cəmiyyətin şüurunu müəyyən edirlər və deməli, kollektiv şüur bilavasitə fərdi şüurdakı dəyişikliklərdən asılıdır. Ən yeni texnologiyalar alimin şüurunda köhnə adəti sxemlərlə əlaqələri kəsən, elmi inqilab əlaməti olan müəyyən düşüncə tərzi yaradır. Söhbət elm institutunu qoruyub saxlamaq və ondan cəmiyyəti, mədəniyyəti və dövləti müasirləşdirmək üçün istifadə etmək şərti ilə keçmişin stereotiplərini aradan qaldırmaqdan gedir.

Misal olaraq, ölkəmizin alimlərinin maarifçiliyə, bu və ya digər konkret problemin sadə şərhinə və ya çox vaxt mücərrəd, başqa alimlərin əsərlərindən götürülmüş, lakin təcrübədə yoxlanılmamış və heç bir tətbiqi olmayan (xüsusən də söhbət fəlsəfədən getdikdə), biliklərə yiyələnməyə çox meylli olduqlarını göstərə bilərik. Vaxtilə ölkəmizdə XIX-XX əsrlər elmi inqilabının əsasını qoymuş maarifçilik mərhələsi bu gün də davam edir. Burada şüurun diskretliyi (fasiləliyi) və kontinuallığı (fasiləsizliyi) barədə sual yaranır. Ölkəmizin elmin təşkili timsalından göründüyü kimi, əsaslı dəyişikliklər üçün alimin şüurunun fasiləliyinin zəruriliyini dərk etmək tələb olunur. Bu məsələdə elmin aramsız inkişafında alimin fasiləli şüurunun əhəmiyyətinin dərkinə gətirib çıxarmağa qadir olan elm fəlsəfəsi kömək edə bilər. Əgər elm tarixi şüuru və biliyi fasiləsiz saymağa imkan verirsə, elm fəlsəfəsi onun diskretliliyini müəyyən edir. Bundan başqa, indiki şəraitdə müasir Azərbaycan elmdə müəyyən geriliyə səbəb olan "doğum ləkələri"ni görmək gərək olduğunu anlamağına dəyər. Bunlardan biri də odur ki, bir zaman öz inkişaf yoluna maarifçilikdən başlayan Azərbaycan elmi (onda alimlər yalnız biliyi – onu mütləqləşdirərək, artan və yoxlanıla bilən əsl elmi biliyin tətbiqinin nisbiliyi və özgünlüyünü anlamayaraq – fərdə, kütləyə çatdıran şəxslər kimi çıxış edirdilər) öz məqsəd və metodlarında dəyişməz qalır. Hesab edirik ki, ən yeni texnologiyaların tətbiqi, elmi dəyərlərini yayılması ilə yanaşı, alimə problemə aid malik olduğu bilikdən və onun təsvirindən tədricən bu biliyin artırılması prosesinə və sonra da praktik təcrübəyə keçməyə kömək edə bilər. Yəni bizim üçün elmin, o cümlədən fəlsəfənin problemin araşdırılması (hərçənd, bu da vacibdir) deyil, daha çox onu necə həll edilməsi suallara səmtləşməsi önəmlidir. Və Sİ-in özü-özünü təşkil edən bir sistem kimi intensiv surətdə tətbiq edilməsi məhz şüurun diskretliyi, yeni imkanların axtarışı, yeni vəzifələr təyin etmək və yeni həllləri tapmaq bacarığı deməkdir.

## Üfüqi dialoq elmi paradiqmanın dəyişməsi kimi

Müxtəlif dövrlərdə şüurun genişlənməsi müxtəlif cür baş verir. Çox vaxt bütün fənlər üçün ümumi inkişaf paradiqmasını ifadə edə bilən elm dəyişir. Bu rolu bir vaxtlar fəlsəfə, sonra fizika, daha sonra isə biologiya və digar elmlər oynayırdı. Paradiqmanın dəyişməsi əldə edilmiş biliklərin tətbiqi və verifikasiyası, əvvəlki paradiqmanın məhdudluğunun dərk edilməsi məsələlərinin aktuallaşmasına səbəb olur.

Azərbaycanda elmin bugünkü vəziyyətini diqqətlə araşdırdıqda aydın olur ki, elmdə yeni ideyalar və ideallar təqdim olunur, halbuki onun praktiki tərəfinə bir çox səbəblərdən alimlər laqeydlik göstərilr. Elm problemi yalnız elmin deyil, hətta bütövlükdə cəmiyyətin taleyinin asılı olduğu bir məsələ kimi dərk olunmur. Ola bilsin ki, elə məhz bu cür natamam transformasiya ictimai elmlərdə nəzəriyyədən təcrübəyə keçidə çox az diqqət yetirilir və ümumiyyətlə, elmdə pozitiv dəyişiklərin yoxluğuna səbəb olur. Halbuki, nəzəri-elmi tədqiqat bu və ya digər cari problemin müəyyənləşdirilməsinə yönəlibdirsə, onun praktiki tətbiqi problemin həllinə önəmli təsir göstərə bilər. Nəzəriyyə və təcrübənin qovuşması bizim üçün hansı imkanların yarandığını, elmə və müvafiq olaraq cəmiyyətə hansı faydaları verə biləcəyimizi aydın başa düşməyə imkan verir. Fəqət ölkəmizin bəzi alimləri müəyyən obyektin öyrənilməsində, nəzəri tədqiqi onun nəticələrinin sonradan praktikada tətbiqindən daha çox maraqlanırlar. Fikrimizcə, müasir universal nümunələrin və elmin Azərbaycan modelinin sintezinə əsaslanan yeni metodologiyaların axtarışına tələbat vardır. Həmçinin Sİ-in elmdə tətbiqinin, yoxlanılmış biliklərdən, ehtimali həqiqətdən cəmiyyətin şüuruna, hafizənin inkişafına təsir göstərmək üçün istifadə edilməsi özgünlüyünün və s. fəlsəfi aspektlərinin işlənib hazırlanması da daxil olmaqla nəzəriyyənin təcrübədə həyata keçirilməsinin üsul və vasitələrini yenidən müzakirə etmək zəruridir.

Görünür, dünya sürətlə dəyişdikcə, Azərbaycan elm institutu ona uyğunlaşa bilmir. Bu, bir neçə səbəblə şərtləndirilib: hər şeydən əvvəl, bu, yuxarıda qeyd etdiyimiz kimi, beyin və şüur haqqında ən yeni biliklərin, elmi mühitdə Sİ haqqında xüsusi biliklərin əsasını təşkil etmiş texnologiyaların imkanlarına tam və ya qismən etinasızlıq göstərilməsi ilə bağlıdır. İkincisi, Azərbaycanda elmin geridə qalması həm də ölkənin bir çox tədqiqatçılarının Sİ haqqında ingilisdilli xüsusi elmi ədəbiyyatla tanış olmaması ilə şərtləndirilir. Bəzi alimlərin başqalarını tanımaq istəməməsi (müəyyən sahədə), öz tərzi və metodlarına təhlükə görmək cəhdi vəziyyəti daha da ağırlaşdırır. Hələ də fənn elmlərinin inkişafına üstünlük verilir və fənlərarası biliklərin tətbiqi lazımi qədər dəyərləndirilmir. Məsələn, ictimai və humanitar elmlər sahəsində tarixi yaddaş mövzusu aktual olduğu halda, onun bioloji kontekstinə əhəmiyyət verilmir. Bu müxtəliffənni yanaşmaların arasında hansı münasibətlərin olduğunu araşdırıb tapmaq lazımdır. Bu sahələr alimin peşə etikası, o cümlədən onun fənlərarası təzahür forması ilə əsaslı şəkildə bağlıdır, çünki ciddi dissiplinar etika digər elmlərdən məlumat mübadiləsinə, məlumatların və nəticələrin yenidən yoxlanmasına şərait yaratmır. Bütövlükdə elm üçün bu çağırış R.Kurtsveyl tərəfindən "Ağlın təkamülü" kitabında qeyd olunur [2, s. 9].

Beləliklə, aydın olur ki, indiyə qədər istifadə etdiyimiz həmin akademik kommunikasiya və tədqiqat modelləri artıq köhnəlib və elmin müasir tələblərinə cavab vermir. Bu gün gələcəyə ümumiləşdirilmiş baxışa ehtiva olunmuş fərdi ideyaların üstünlük təşkil etdiyi model daha məhsuldar sayıla bilər.

Qeyd etmək gərəkdir ki, cəmiyyətimiz daha çox texnolojiləşməyə və qloballaşmaya doğru getdikcə, biz interakademik ünsiyyətin daha səmərəli və effektiv üsullarını yaratmaq barədə düşünürük. Bu cür üsullardan biri də bütün dünya alimlərinə informasiya, bilik, ideya və bir çox başqa resursların mübadiləsinə imkan verən virtual laboratoriyaların elmə tətbiq və daxil edilməsidir. Məsələn, Azərbaycanda 2019-cu ildə AMEA Fəlsəfə və Sosiologiya İnstitutunda Yeni İpək Yolu üzərində mədəni qarşılıqlı əlaqə fəlsəfəsi üzrə virtual laboratoriya yaradılmışdır. Həmin laboratoriya Azərbaycan, Çin, İtaliya, Rusiya və Qazaxıstanın tanınmış filosoflarının iştirakı ilə müxtəlif ölkələrin alimləri arasında əlaqələrin möhkəmləndirilməsi, akademik prosesə və onun genişlənməsinə kömək edilməsi üçün münasib şərait yaradır bununla da elmi tədqiqatların səmərəliliyi və inteqrasiyasının artırılmasına yardım göstərir. Virtual laboratoriyalar prosesə cəlb olunmuş elmi institut, ölkə və mədəniyyətlərin unitar düşüncə tərzinin formalaşdırılmasının tələb olunduğunun əyanı örnəyidir. Şübhəsiz ki, ən müasir texnologiyaların əlçatanlığı təkcə elmin deyil, həm də bütövlükdə ölkənin inkişafını təmin edir, buna görə də bizə, ilk növbədə, onların tətbiqi üzrə milli strategiya üzərində işləmək lazımdır.

Milli elmin inkişaf xəttinə uyğun olaraq biz həm də Azərbaycan elmi üçün yeni olan və elmi mühitdə üfüqi münasibətlərin təşəkkülünə əsaslanan yeni əməkdaşlıq modelinin tətbiqini təklif edirik. Bu cür münasibətlər həm bir sahənin (sosial fəlsəfə, etika, məntiq və s.) mütəxəssisləri, həm də müxtəlif ölkələrin fərqli sahələri üzrə alimləri arasında konstruktiv dialoqu nəzərdə tutur. Bu gün riyaziyyat, fizika, iqtisadiyyat və ya neyrobiologiya olmadan fəlsəfənin (və əksinə), bir neçə onilliklər əvvəl olduğu kimi, inkişafının mümkün olmadığına heç bir şübhə yoxdur. Elə korrelyatlar vardır ki, onları təhlil və istifadə etmədən aparılan tədqiqat keyfiyyətsiz və yanlış olacaqdır. Bizim üçün tamamilə aydındır ki, əməkdaşlıq bütün istiqamətlər üzrə aparılmalıdır və bunun üçün Sİ-in əsas istiqamətlərindən biri kimi proqramlar və insanların səmərəli qarşılıqlı əlaqəsinin standartlar və metodologiyalarını işləyib hazırlamaq lazımdır. Bundan əlavə, tədqiqatçı dissiplinar və multidissiplinar biliklər arasındakı ziddiyyətləri aradan qaldırmağa, birini digəri ilə yoxlamağa hazır olmalıdır. Burada əlavə bilik və reallıq problemi meydana çıxır. Sİ-in verdiyi bu cür yeni bilik alimə dissiplinar bilik çərçivəsindən kənara çıxmağa kömək edir. Təbii ki, iş təkcə Sİ-də deyil, lakin həm də ondadır. Əgər əvvəllər alim öz fənninin bilikləri haqqında tələblərə əməl edirdisə, indi vəziyyət başqa cürdür.

Üfüqi dialoq aşağıdakı prinsiplərə əsaslanır:

Birincisi, mütəxəssis zəruri surətdə yalnız öz fənni haqqında biliyə malik olmaqla kifayətlənməməli, həm də müasir elmin dilini fənn dilindən fərqləndirməyi bacarmalı, ümumiyyətlə, elmin və biliyin nə olduğunu, onun cəmiyyətin "bilikli" cəmiyyətinə çevrilməsi üçün necə inkişaf etməli olduğunu bilməlidir.

İkincisi, alimin fərdi xüsusiyyətləri və bilikləri onun bu və ya digər fənnə formal aidiyyətliyindən üstün olmalıdır, yəni ixtisaslaşma və yaradıcılıq arasındakı seçimdə sonuncu prioritet təşkil etməlidir. Müxtəlif bilik və təcrübə səviyyəsinə malik olan alimlər yaradıcı qarşılıqlı təsir və sinergetik təfəkkürün təşəkkülü vasitəsi ilə ümumi inkişafa səmtləşir. Bu proses qərar qəbuletmə mədəniyyəti və dialoq mədəniyyətinin birləşməsini nəzərdə tutur.

Eyni zamanda, anlamaq lazımdır ki, söhbət mədəniyyətində İslam ənənəsi, elmi əməyin şaquli dialoqa üstünlük verildiyi sovet təşkili təcrübəsi olan bir ölkədəki elmdən gedir. Ənənələr, mədəniyyət elmin SSRİ-dən bizə miras qalmış keçmiş illüziyalarından, ABŞ və ya Yaponiyadakı elmi nailiyyətlər Azərbaycan elmi üçün də müasirliyə sıçrayışı təmin edəcəyi illüziyasından ayrılmağı çətinləşdirir. Alimin əmək şəraitini, onun şüurundakı mədəni və sosial idealları dəyişdirmək, onun elm və təhsilin əhəmiyyətini heç də həmişə aydın dərk etməyən ənənəvi şüur tipini aradan qaldırılması əsasında, onun yeni obrazını formalaşdırmaq lazımdır. Digər ölkələrdəki elmi nailiyyətlər alimlərimizin şüurunun qismən dəyişməsinə səbəb ola bilsə də, bu ancaq yeni ideyaları praktik təcrübəyə tətbiq etmək zərurətinin dərk edilməsinin və mədəni, tarixi və milli xüsusiyyətlər nəzərə alınmaqla cəmiyyətin özünün inkişaf və müasirləşmə yolunu tapmasından keçir.

## Nəticə

Beləliklə, elmi və texniki proseslərin sürətlə qovuşması Sİ-in elmə tətbiqini son dərəcə zəruri edir. Sİ alimlərin informasiya və intellektual potensialına əsaslanaraq elmi yeni prinsiplər üzərində qurur. Lakin bu, o demək deyil ki, elmin şərh, təsvir və ya izah kimi əsas vəzifələri ikinci dərəcəli vəzifələr sırasına keçəcək. Fəqət reallığın idarə olunmasının yeni metodlarının işlənib hazırlanması prinsipial əhəmiyyət kəsb edəcəkdir. Bununla bağlı olaraq müasir elmin etik əsaslarına, o cümlədən, alimin elmi idrakın inkişafının sosial məqsədlərinin gerçəkləşdirilməsində məsuliyyətinə xüsusi diqqət yetirilir. Buna görə, Sİ təkcə dərk edilməsinin zəruri olduğu material təchiz etməklə kifayətlənmir, həm də insan şüurunun mahiyyəti, onun təşəkkülündə mənafe, mənfəət, əxlaq və zəkanın hansı rol oynadığı barədə fikirlərimizi dərinləşdirməyə imkan yaradır [6, s. 142]. Eyni zamanda, Sİ alimin yeni şüurunun formalaşdırılmasına və bütün sahələrdən olan alimlərin (filosofların, fiziklərin, iqtisadçıların və s.) birgə fəaliyyəti əsasında, fənlərin qovuşuğunda olan mövzuların tədqiqinə

xüsusi diqqət cəlb edərək elm institutunun yenidən qurulmasına gətirib çıxarmağa qadirdir. Yeni şüur tipinin təşəkkülü ehtimali mühakimələrə və dini və sosiomədəni yanlışlıqları aradan qaldırmağa qadir olan mənən-əhəmiyyətli qərarlar qəbul etmək məntiqi kontekstində getməlidir. Əlbəttə, yeni təfəkkür tərzi Sİ-in tətbiqi ilə bağlıdır, fəqət o, Sİ-in tətbiqinin elmi, onun imkanlarını və alimin məsuliyyətini necə dəyişdiyi dərk ediləndə yenilənir.

Sİ-in hərtərəfli öyrənilməsi və onun təctrübədə tətbiqi, şübhəsiz ki, bütün koqnitiv elmlərin inkişafına gətirib çıxaracaqdır. Məsələn, koqnitiv elm koqnitiv iqtisadiyyatın formalaşmasına səbəb ola bilər ki, bu da zəruri informasiyanın alınması və emalı üçün tələb olunan büdcə və vaxtı əhəmiyyətli dərəcədə azaltmağa imkan verər. Yəni alimin şüurunun transformasiyası bütövlükdə cəmiyyətin tərəqqisini şərtləndirir və müvafiq olaraqlər, yeni fikirlər keçmişin faydasız xülyaları, illüziyaları ilə yüklənməmiş həm dar ixtisaslaşmış elmi, həm də sosial dəyərlərin yeni dərkini formalaşdırır.

Belə ki, yeni təfəkkür tərzinin formalaşması, ilk növbədə, Azərbaycan elminin özünün və onun alimlərinin fəaliyyətində həyata keçirilməli olan kompleks xarakterli olmalıdır və öz növbəsində, elmi mühitdə baş verən müsbət dəyişikliklər ölkədə insan həyatının bütün sahələrinin mərhələli şəkildə müasirləşməsi üçün möhkəm əsasdır.

## Ədəbiyyat


1. Анохин К., Новоселов К., Смирнов С., Ефимов А., Матвеев Ф. Искусственный интеллект для науки и наука для искусственного интеллекта // Вопросы философии. 2022. Т. № 3. С. 93–105.
2. Курцвейл Р. Эволюция разума или бесконечные возможности человеческого мозга, основанные на распозновании образов / пер. Т.Масловой. М.: Эксмо, 2018. 352 с.
3. Мамедзаде И. На путях к информационному обществу: модернизация Азербайджана и некоторые проблемы и задачи науки / Гуманизм и философские ценности. Москва: “Канон+”, 2011, с. 72-81.
4. Communication from the Commission. Artificial Intelligence for Europe, 25.04.2018 // URL: https://eur-lex.europa.eu/legal-content/EN/TXT/?uri=COM%3A2018%3A237%3AFIN
5. Luger G., Stubblefield, W. Artificial Intelligence. Structures and strategies for complex problem solving. USA: Addison Wesley Longman, Inc. – 1998.
6. Mammadzada I. Artificial Intelligence and update of some philosophical problems / Thematic papers. Philosophy nowadays: Reflections on education and the digital transformation of knowledge. Belgrade, Sofia – 2021. Pp. 139-142.
7. Moor J. The Dartmouth College Artificial Intelligence Conference: The Next Fifty years, AI Magazine, Vol 27, No., 4, Pp. 87-9, 2006.
8. Stanford Encyclopedia of Philosophy / First published Jul 12, 2018 // URL: https://plato.stanford.edu/entries/artificial-intelligence/



**Rəyçi:** **fəl. elm. dok. D.Muslimzadə,**

**Göndərilib: 05.10.2022** **Qəbul edilib: 15.10.2022**